

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 noyabr 2022-ci il №92 (2703) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram**:

1. 2005-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1988-2004-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2023-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2023-cü il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 noyabr 2022-ci il

*Reportaj*

## Gənclərimiz ordu sıralarında yüksək vətənpərvərliklə xidmət edirlər



***Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev daim ordu gəncləri ilə görüşlərində bildirirdi ki, əsgərin, döyüşçünün gücü onun vətənpərvərliyindədir. Doğrudan da, ürəyində Vətən sevgisi olmayan əsgər ən müasir silahlarla da düşmənə qalib gələ bilməz. Düşmən üzərində zəfər qazanmağı qarşısına məqsəd qoyan əsgər Vətəninə, millətinə, dövlətinə sıx tellərlə bağlı olmalıdır. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunda əsgər və zabitlərin yüksək vətənpərvərlik hissinə malik olduğunu göstərdi. Əgər belə olmasaydı, qısa bir vaxtda torpaqlarımız azad edilə bilməzdi. Rəşadətli ordumuzun qazandığı şanlı zəfər və azad olunmuş ərazilərdə ucalan bayrağımız Azərbaycan əsgərinin mənəvi dəyərlərə sədaqətinin, vətənpərvərliyinin rəmzidir.***

Azərbaycan əsgəri döyüşlərdə göstərdiyi rəşadəti bu gün Vətənimizin keşiyində mətin dayanmaqla davam etdirir. Torpaqlarımızı qalib əsgər kimi yüksək döyüş ruhunda inamla qoruyur. Dağlıq relyefi ilə seçilən ərazilərimizdə bu inamın bir daha şahidi oldum. Erməni silahlı qüvvələri ilə qarşı-qarşıya döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşə gəlmişik. Bölmənin çətin relyefli ərazidə yerləşməsinə baxmayaraq, hərbi hissənin əsgəri də, komandiri də xoş ovqatdadırlar. Yüksək mənəvi keyfiyyətlərə malik olan gənclərin səngərlərdə döyüş növbətçiliyini uğurla aparması xain planlarından əl çəkməyən qarşı tərəfə göz dağı olur. Artıq bir neçə dəfə erməni silahlı birləşmələrinin təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Azərbaycan əsgəri qalib əsgər olduğunu və torpaqlarımızın keşiyində ayıq-sayıq dayandıqlarını bir daha sübut edib.

Qərargahda kapitan Mustafa Əsgərli ilə görüşürük. Səhər yerbəyerindən sonra şəxsi heyətin vacib döyüş tapşırıqlarını yerinə yetirdiyini bildirən zabit qeyd edir ki, əsgərlərin mənəvi-psixoloji vəziyyəti yüksəkdir. "Bu gün sıralarımızdakı hər bir əsgər torpaqlarımızın keşiyində inamla dayanır. Yüksək əhval-ruhiyyədə xidmət edir. Azərbaycan Ordusunun Böyük Qələbəsi hər kəsə ruh yüksəkliyi aşılayıb. Adları dillərdə dolaşan igidlərin, şəhidlərin hər biri onlara nümunə, örnəkdir", - deyən zabit döyüş mövqeyinə yola düşmək üçün maşının hazır olduğunu bildirir.

Vətənə övladlıq borcunu şərəflə və uğurla yerinə yetirən oğulların görüşünə yenə xoş hisslərlə gedirik. Hər dəfə sərhəd deyiləndə gözlərim önündə Vətənin, elin-obanın qorunduğu müqəddəs bir ünvan canlanır.

Zabit yol boyu söhbətinə davam edərək bildirir ki, əsas məqsədimiz bizə etibar edilən əraziləri göz bəbəyi kimi qorumaq və tabeliyimizdə olan gəncləri yüksək döyüş hazırlıqlı əsgərlər kimi formalaşdırmaqdır. "Son vaxtlar hava şəraitinin tez-tez dəyişməsinə baxmayaraq, əsgərlərimiz döyüş növbətçiliyində ayıq-sayıqdırlar. Hər kəs xidmət apardığı döyüş mövqeyində öz məsuliyyətini dərindən hiss edir. Ürəkləri Vətən adlı bir müqəddəs sevginin ünvanı olan əsgərlərimiz vətənpərvərliklərindən güc alırlar. Fikrimcə, doğulduğu yurdu, üzərində boy atıb yaşadığı torpağı müqəddəs varlıq sayan əsgərin döyüş əzminə söz ola bilməz".

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Bölgədəki terror təhlükəsini zərərsizləşdirmək, ərazidə yaşayan mülki insanları terror hücumlarından və təhdidlərindən qorumaq məqsədilə qardaş Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatlarının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçularının şəhid olması və yaralanması xəbərləri məni dərindən kədərləndirir.

Sizin acınız bizim də acımızdır.

Terrora qarşı aparılan kəskin mübarizədə daima qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və Sizi var gücümüzlə dəstəkləyirik.

Şəhid olmuş qəhrəman türk əsgərlərinə rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

# Azərbaycan Ordusunun Baş Qərargah rəisinin ABŞ-a səfəri başlayıb





*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Amerika Birləşmiş Ştatlarında səfərdədir.*

Amerika Birləşmiş Ştatlarında səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 28-də ölkəmizin ABŞ-dakı səfirliyində olub.

* * *

Amerika Birləşmiş Ştatlarında səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ABŞ-ın Birləşmiş Qərargahlar Rəisləri Komitəsi rəisinin birinci müavini admiral Kristofer Qreydi ilə görüşüb.



Görüşdə Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlığın perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Səfər zamanı nümayəndə heyətinin "Ştatla Tərəfdaşlıq Proqramı" çərçivəsində Oklahoma ştatında görüşlərin keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, səfər çərçivəsində Azərbaycan Ordusu ilə Oklahoma Milli Qvardiyası arasında əməkdaşlığın 20 illiyi münasibətilə bir sıra tədbirlər təşkil olunacaq.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Gənc zabitlərimiz*

# Bu yol şərəfli yoldu

*Ordu quruculuğuna böyük önəm verən Ümummilli Lider Heydər Əliyev hakimiyyətinin bütün dövrlərində gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsinə ciddi diqqət yetirərək deyirdi: "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır". Zabit peşəsi bilavasitə Vətənin müdafiəsi deməkdir.*

Qax rayonunun Qıpçaq kəndindən olan leytenant Turan Əzizovla döyüş növbətçiliyi aparan bölmədə söhbətləşdik. Hərb peşəsinə olan sevgisi ona 18 yaşı olarkən hərbi mundiri geyinməyin sevincini yaşadıb. 2020-ci ildə çiyinlərində qürurla daşıyacağı rütbələrini taxıb, arzusunda olduğu peşəyə yiyələnib. Bir neçə ay sonra başlayan İkinci Qarabağ müharibəsində iştirak edib. Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşlərə qoşulan Turanın döyüş yolu Füzulidən başlayıb, Şuşaya qədər davam edib. Gənc zabit peşə seçimindən, işinə olan sevgisindən ağızdolusu danışdı.

- Hərb peşəsini öz istəyimlə seçmişəm. Daha dəqiq desəm, uşaqlıq dostlarımın da bu peşəni seçməsi mənə stimul olub. Onlar məndən bir-iki yaş böyük idi. Hərbi liseyə qəbul olmuşdular. Kursant olmaq istəyi ürəyimdə çoxdan tumurcuqlamışdı. Dostlarımın andiçmə günündə iştirakım, onları və onlar kimi yüzlərlə həmyaşıdımı hərbi formada görmək bu istəyimi daha da dönməzləşdirdi. Orta məktəbi bitirib onların sırasına qoşulmağa qərar verdim. Ailəm və yaxınlarım da bu seçimimə rəğbətlə yanaşdılar. Təbii ki, məni ən çox valideynlərimin xeyir-duası sevindirdi.

Leytenant düşüncələrinə sarılıb dedi ki, andiçmə mərasimi gününü heç vaxt unutmayacağam. "İllər əvvəl sıra meydanında dostlarım Hərbi andı qəbul edirdilər, mən onların sırasında olmağı arzulayırdım. Həmin gün arzum reallaşdı, mən də kursant olmağın sevincini yaşadım. Andiçmədən sonra təntənəli marşla valideynlərimizin və tədbirdə iştirak edən kütlənin qarşısından keçdik. Onların fəxarət dolu baxışlarını hiss etdikcə seçdiyim peşənin müqəddəsliyini dərk edir, kursant olmaqla bir daha qürur duyurdum. Həmin an sevinc, həyəcan dolu hisslər keçirirdim. Bu hisslərin ağuşunda özümə bir söz verdim - Vətənə, dövlətə və Hərbi anda sadiq olacaq, nümunəvi, nizam-intizamlı xidmət edərək, Azərbaycan Ordusuna layiqli zabit olacam".

Bu çətin, amma şərəfli peşəni seçən Turanın simasında əks olunan sevinc, həyəcan və qürurlu baxışları onun peşəsinə sonsuz sevgi ilə bağlandığının təsdiqidir. Gənc zabit bölmədə xidmətin yüksək səviyyədə təşkil olunduğunu, torpaqlarımızın qətiyyətlə qorunduğunu bildirdi. Döyüş növbətçiliyinin təşkilinin xüsusi diqqətdə saxlanıldığını dedi. "Döyüş növbəsinə gedən şəxsi heyətin hazırlanmasını, silah-sursatla təmin olunmasını, mənəvi-psixoloji vəziyyətlərini daim nəzarətdə saxlayıram. Növbəyə çıxmazdan əvvəl onları təlimatlandırır, döyüş növbəsində ayıq-sayıq dayanmağın mahiyyətini başa salıram. Əsgərlərin döyüş hazırlığı ilə bərabər mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Hər biri vəzifələrinin məsuliyyətini yaxşı dərk edir, qürurla, həvəslə xidmət edirlər".



Xidmətin təşkilindən, öhdəsinə düşən vəzifələrindən danışan leytenant Turan Əzizov bildirdi ki, əsgərlərin güvəncini və sevgisini qazanmaq komandir üçün vacib şərtdir. "Əsgər ən əvvəl komandirinə inanmalı, onu ən yaxın dostu kimi qəbul etməlidir. Bunun üçün onlara doğma münasibət bəsləyir, səmimi söhbətlər edir, qayğıları ilə yaxından maraqlanıram. Çalışıram ki, bölmədə xidmət edən hər bir əsgər məni böyük qardaşı kimi görsün, kollektiv arasında mehribançılıq olsun, qarşılıqlı münasibətlər düzgün qurulsun. Bunlar olanda xidmət də gözəl gedir. Zabit, gizir, əsgər - hamımız torpaqlarımızın keşiyində dayanmaq, ərazi bütövlüyümüzü qorumaq amalı üçün buradayıq. Bir-birimizə nə qədər sıx tellərlə bağlı olsaq, bir o qədər güclü olarıq. Çünki bu formanı geyinən hər kəsi bir ülvi sevgi birləşdirir - Vətən sevgisi".

Bölmədə olduğum vaxt ərzində şəxsi heyətin nizam-intizamına, səliqəli üst-başlarına, mehribançılığına və səmimiyyətinə şahid oldum. İstər komandir-əsgər arasında, istərsə də əsgərlər arasında qarşılıqlı münasibətlərin ürəkaçan olduğunu izlədim. Əmin oldum ki, leytenant Turan Əzizov gənc olsa da, kifayət qədər bacarıqlı, savadlı zabitdir və vəzifələrinin öhdəsindən layiqincə gəlir.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# MÜDAFİƏ NAZİRLİYİNİN MƏTBUATA AÇIQLAMASI

Təəssüflə bildiririk ki, dəfələrlə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən narazılıq ifadə olunmasına baxmayaraq Rusiya Federasiyasının sülhməramlı kontingentinin rəsmi məlumatlarında yaşayış məntəqələrimizin adlarının erməni toponimləri ilə qeyd olunması yenə də davam edir.

Qarabağ iqtisadi rayonunun "Dağlıq-Qarabağ ərazisi" kimi qeyd edilməsinə son qoyulmalıdır. Ümumiyyətlə, Azərbaycan ərazilərinin uydurma erməni toponimləri ilə ifadə olunması yolverilməzdir.

Azərbaycan Respublikası ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin komandanlığını yaşayış məntəqələrimizin adlarının onlara göndərilən rəsmi sənədlərə müvafiq şəkildə ifadə etməyə çağırırıq.

28.11.2022-ci il tarixində Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin rəsmi məlumatında "Mardakert", "Martuni", "Madagiz" və "Getavan" kimi adlandırılan Azərbaycan yaşayış məntəqələrinin rəsmi adları uyğun olaraq AĞDƏRƏ, XOCAVƏND, SUQOVUŞAN və QOZLUKÖRPÜDÜR.

# Gənclərimiz ordu sıralarında yüksək vətənpərvərliklə xidmət edirlər



(Əvvəli 1-ci səhifədə)

Yol boyu mühəndis-istehkam işlərinin yüksək tələblərə cavab verdiyini müşahidə edirəm. Qürurlu görkəmi ilə ilk baxışdan xoş təsir bağışlayan leytenant Turan Əzizovla görüşürük. Zabit hər şeyin qaydasında olduğunu məruzə edir.

Zabitdən son vəziyyəti soruşduqda bildirir ki, düşmən tərəfi tez-tez atəşkəsi pozur, təxribatlara əl atır, lakin bölmələrimizin ayıq-sayıqlığı nəticəsində hər dəfəsində layiqli cavablarını alırlar. Turan lap erkən çağlarından bu peşəyə bağlanıb, hərbi forma daşıyan insanlara həsəd aparıb və özü də bu yolu seçib. Gənc zabit söhbətinə şəhid olan silahdaşları ilə bağlı xatirələrlə başlayır, onların Vətən naminə yaşayıb mübarizə apardığını vurğulayır. "Gördüyünüz kimi, döyüş növbətçiliyini apardığımız ərazilər başdan-başa dağ silsiləsidir, hava şəraiti də dəyişkəndir. Günorta havaların bir qədər mülayim keçməsinə baxmayaraq, gecə şaxta olur. Payız fəsli olsa da, qar da yağır. Amma təbii çətinliklər bizi qorxutmur, çünki sosial təminatlarımız yüksək səviyyədədir. Belə nümunəvi şəraitdə gecə-gündüz Vətənimizi inamla qoruyuruq. Düşmən heç vaxt təxribat törətməyə imkan tapa bilməz, çünki bu yerləri Vətən uğrunda şəhid olan qəhrəman oğullarımızın layiqli davamçıları qoruyurlar".

Zabit döyüş növbətçiliyinin nümunəvi təşkil edilməsindən danışaraq deyir ki, sıralarımıza qəbul olunan hər bir əsgərimizə bu ərazilərin azadlığı uğrunda canından keçən Vətən oğulları haqqında, hansı məqsəd naminə şəhidlik zirvəsinə ucaldıqları barədə söhbətlər edirik. "Qəhrəmanlarımızın ömür yolu hər birimizə örnəkdir. Əsgərlərimiz də onların yolunu davam etdirməyə, Vətənə əsl vətəndaş kimi xidmət etməyə söz verirlər", - leytenant T.Əzizov qeyd edir.

Bölmənin ərazisi, şəraiti ilə tanışlıqdan sonra şəxsi heyət ilə həmsöhbət oluram. Əsgərlərin düşüncələri zabitin sözlərinin təsdiqi olur. Vətənə övlad haqqını ödəməkdən qürurlu olduğunu dilə gətirən əsgər Rəvayət Abdulrəhmanov deyir:

- Vətənimizə sevgimiz sonsuzdur, torpaq uğrunda hər addımda fədakarlığa hazırıq, ərazi bütövlüyümüzü qorumaq naminə lazım gələrsə, canımızı da fəda edərik. Hərbi xidmətə gəldiyim ilk gündən yurdumun müdafiəsində ayıq-sayıq dayanacağıma söz vermişəm.

Rəvayət kimi vətənpərvər, ürəklərində tükənməz Vətən sevgisi olan oğullarla görüşüb tanış olmaqdan qürur duyuram. Onlar döyüş hazırlığı, hərbi bilikləri və vətənpərvərlikləri ilə düşmənə keçilməz çəpər olurlar.

Şabran rayonundan hərbi xidmətə çağırılan əsgər Ramin Ağayev vurğulayır ki, Vətəni qoruyan oğulların sırasında olmaq onun üçün böyük şərəfdir. "Həmişə vətənpərvərlikdən söz düşəndə Polad, Mübariz, Fərid, Anar, Faiq, Orxan... kimi oğullarımızı özümə ideal sanıram. Bu gün bir çox igidlər aramızda olmasa da, onların ruhunu daim yanımızda hiss edirik. Hər birinin ömür yolu, vətənpərvərliyi bizi qoruduğumuz bu Vətənə daha da sıx bağlayır".

Bəli, əsgərlərimizin cəsur ürəyi, tükənməz inamı, Vətən sevgiləri var. Elə ordumuzun da yükünü çiyinlərində daşıyan belə mətin oğullarımızdır. Bu gün yurdumuzu qoruyan, əsl döyüşçü kimi formalaşan hərbçilərimiz, əsgərlərimiz saysızdır. Müsahibim əsgər Ramil Hüseynov Vətən sevgisinin ilahi qüvvə olduğunu deyərək, ordu həyatı ilə bağlı təəssüratlarını bölüşür.

"Bacarıqlı, savadlı, qayğıkeş, vətənpərvər komandirlərimizin tabeliyində xidmət etməkdən qürur duyuruq. Biz onların köməyi sayəsində hər şeyə nail olmuşuq, həm kifayət qədər hərbi təcrübəmiz, həm də tükənməz Vətən sevgimiz var. Hərbi xidmətdə keçən günlərimizin dəyəri böyükdür, çünki ordu mühitində həm Vətəni qorumaq, həm də cəmiyyətin əsl vətəndaşları olmaq üçün zəruri keyfiyyətlərə yiyələnirik. Kim ordu həyatını qəhrəmanlıq məktəbi hesab edirsə, tam haqlıdır. Bacarıqlı əsgər olmağın sirrini ilk növbədə yaşadığın torpağa məhəbbətdə görürəm. İnam, tükənməz dözüm, iradə aşılayan bu sevgi ilahi bir qüvvədir. Döyüş növbətçiliyində olanda hansı müqəddəs vəzifəni yerinə yetirdiyinin məsuliyyətini hiss edirsənsə, daha ayıq-sayıq və mətin dayanırsan".





Ramil doğru deyir ki, vətənpərvərlik elə bir ali hissdir ki, adamı qəhrəman olmağa, fədakarlıq göstərməyə ruhlandırır. Həmin ruhla İkinci Qarabağ müharibəsində zabit və əsgərlərimiz dünya hərb tarixinə əbədi olaraq həkk olunan qəhrəmanlıq nümunələri göstərdilər. Vətənpərvərlikdən danışarkən bu yaxınlarda televiziya verilişlərinin birində qonaq olan şəhid atası Elman kişinin dediyi sözləri xatırlayıram. Elman kişi İkinci Qarabağ müharibəsində şəhid olan İman və Bəhrəm Məmmədzadənin atasıdır. "...Övladı verən də Allahdır, alan da Allahdır. Mən nə Allaha üsyan edə bilmirdim, nə də dövlətimə. Allah deyir ki, bəndə, övladı mən verdim, amma Vətənin yolunda verdim. Vətənin yolunda da aldım. Vətən əzəldən bizim üçün çox qiymətli olub. Bu sevgi, bu iradə bizdə nəsillikcə olan bir qüvvədir. Əgər bu gün müstəqilliksə, şəhid də olacaq, müharibə də. Xalqımızın bir gözəl kəlamı var: "Mərdin adı mərd qalar, namərdin qəbrini daş-qalaq edərlər". Biz bu dünyaya mərd gəlmişik, mərd də gedəcəyik. Əgər ölmək lazım olarsa, döyüşəcəyik və öləcəyik. Biz ölümdən qorxan millət deyilik. Yetər ki, Vətən yaşasın...". Şəhid atasının bu sözləri ölkəmizdə vətənpərvər, dövlətinə bağlı cəmiyyətin olduğunun sübutudur. Vətənpərvər ailələrdə və cəmiyyətdə milli-mənəvi dəyərlərə sədaqət ruhunda böyüyən gənclərimiz də ordu sıralarında yüksək vətənpərvərlik əzmində xidmət edir, şərəfli vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

## *Nümunəvi xidmət*

# "Böyük əzmlə başladığımız müharibə zəfərlə sonlandı"

Fəslin soyuğuna, sazağına baxmadan torpaqlarımızın müdafiəsində dayanan hər bir igidlə fəxr edirik. 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyev əks-hücum əmrini verdikdən sonra neçə-neçə oğullar İkinci Qarabağ müharibəsinin iştirakçısı oldu. Qorxu bilməz zabit və əsgərlərimiz sayəsində haqq savaşımız Zəfərlə sonlandı. Bu sevinci xalqımıza yaşadan hərbi qulluqçularımızdan biri də "N" hərbi hissəsində xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Elməddin Alıyevdir. Onunla söhbətimiz zamanı gözlərindən qalib ordunun nümayəndəsi olmağın qürurunu duymaq olurdu.

Elməddin Alıyev dedi ki, əsgər olduğu müddət ərzində orduda xidmət etmək ən böyük arzularından biri olub. Bu arzuyla kurs keçərək xidmətini müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirir.



- Uşaqlıqdan bir sualla böyümüşəm: "Böyüyəndə hansı peşənin sahibi ola bilərəm?". Bu sualın cavabını tapmaq olduqca çətin idi. Çağırış vərəqəsi gələndə hərbi mundir geyinəcəyim üçün qürurlandım. Atama komandirlərimin əmrlərinə sözsüz tabe olacağıma və ailəmə başucalığı gətirəcəyimə söz verdim. Əsgər kimi xidmət etdiyim müddət ərzində vəzifəmin məsuliyyətini anlayır, daha diqqətli olmağa səy göstərirdim.

Xidmət müddətimin bitməyinə az qalmış qərara gəldim ki, hərbçi olaraq Vətən keşiyində duracam. Bu qərar ailəmin də sevincinə səbəb oldu. Söz verdim ki, bir gün mən də Qarabağ torpaqlarını işğaldan azad edənlərin sırasında olacağam. O günü hər birimiz arzulayırdıq. Sentyabrın 27-də Ali Baş Komandanın əks-hücum əmri hər birimizin illərdən bəri gözlədiyi anı yaxınlaşdırdı. Hələ uşaqlıqdan tarix kitablarını oxuduqca xalqımızın apardığı birlik mübarizəsini öyrənirdik. İkinci Qarabağ müharibəsi başlananda bu birliyin canlı şahidi oldum. İnsanlar cəbhədə döyüşən əsgərlərinə böyük inamlarını məktublara yazaraq göndərirdilər. Bizlər də igidliklə vuruşaraq bu etimadı doğrultmağa çalışırdıq. Şəhidləri sonsuz ehtiramla son mənzilə yola salırdılar. Bibim oğlu Niyaməddin Məhərrəmov Kəlbəcər uğrunda gedən döyüşlərdə igidlik göstərərək şəhadətə ucalmışdı.

- Böyük əzm və ruh yüksəkliyi ilə başladığımız müharibə Zəfərlə sonlandı. Biz də bu qələbə üçün döyüşürdük. İndi deyə bilərəm ki, mən qalib ordunun qalib hərbi qulluqçusuyam. Niyaməddinin qisasını almaq mənə qismət olduğu üçün olduqca fərəhliyəm.

Vətən müharibəsi xidmət etdiyim müddətdə ən yadda qalan hadisələrdən biri olaraq ömürlük yaddaşıma həkk olundu. "Öncə Vətəndir!" - deyib gedənlərdən biri kimi mən də döyüşlərlə bağlı xatirələrimi, xalqımızın bizə olan inamını, ən əsas Ali Baş Komandan İlham Əliyevin döyüşçülərə ruh yüksəkliyi verən çıxışlarını heç zaman unutmayacağam.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# “İkinci Qarabağ müharibəsi qəhrəmanlıq tariximizin şərəfli səhifəsidir”

Fariz Rüstəmov 1980-ci ildə Cəbrayıl rayonunun Qumlaq kəndində müəllim ailəsində anadan olub. 1993-cü ildə kiçik yaşlarında valideynləri ilə birlikdə ermənilərin hücumları nəticəsində doğma ocaqlarından didərgin düşüb. Bir müddət Sabirabad rayonunda məskunlaşıblar. Sonra Bakı şəhərinə köçüblər. Fariz Rüstəmov 1994-2001-ci illərdə hərbi təhsil alıb. 2001-2002-ci illərdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit ixtisas hazırlığı kursunda olub. 2002-ci ildə "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Hərbi hissənin məsul zabitlərindən biri kimi Vətən müharibəsində iştirak edib.

**- Cəbhə bölgəsində xidmət edir, tez-tez səngərlərdən işğal olunan torpaqlarımızı seyr edirdiniz. Qoynunda dünyaya göz açdığınız rayonun işğalda qalmış ərazilərinə baxanda hansı hissləri keçirirdiniz?**

- Bəlkə də dünyada ən ağır, dözülməz dərdlərdən biri də doğulub boya-başa çatdığın torpaqlara uzaqdan baxmaqdır. Mən rayonumuzun Nüzgar, Mehdili və başqa kəndlərinə uzaqdan baxanda kəndimiz Qumlaq gözlərim önündə canlanırdı. Ata-baba yurdumuza, evimizə qayıtmaq, uşaqlığım keçən o yerlərdə yaşamaq istəyirdim. Amma təəssüflər ki, bu mümkün deyildi. Çünki işğal edilmiş torpaqlarımızı ermənilər geri qaytarmaq niyyətində deyildilər.

**- Erməni işğalçılarının hücumu nəticəsində 13 yaşında doğma kəndinizdən didərgin düşmüsünüz. Ağrı-acılarla dolu o günləri necə xatırlayırsınız?**

- Tam səmimi deyim ki, o günlər həyatımın ən kədərli səhifəsidir. Çünki o günlərin yaddaşında qaçqınlıq var, doğma ocağından didərgin düşməyin ağrısı var. Ömrümün həmin səhifəsi demək olar ki, göz yaşları ilə yazılıb.



***Müsahibim İkinci Qarabağ müharibəsinin iştirakçısı olmuş və döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", Şuşanın azad olunmasına görə", həmçinin "Döyüşdə fərqlənməyə görə" medallarına layiq görülmüş polkovnik-leytenant Fariz Məhərrəm oğlu Rüstəmovdur.***

1993-cü ilin isti yay günlərinin birində ermənilərin hücumuna məruz qaldıq. Bizdən arxada qalmış kəndimizə baxa-baxa Araz çayını keçib ölkəmizin başqa bölgələrinə sığındıq.

**- Zaman keçdikcə bu həsrət erməni işğalçılarına qarşı nifrətə çevrildi. Bu nifrətdən isə qisas və intiqam hissi doğdu.**

- Məni hərbçi olmağa sövq edəndə bu hisslər oldu. Yaşa dolandan sonra hərbi təhsil alaraq doğma ordumuzun sıralarında xidmətə başladım. Ermənilərə qarşı olan nifrət hissi bir an olsun belə məni tərk etmədi. Çünki bu hiss daim mənə güc-qüvvət verirdi. Artıq kifayət qədər döyüş təcrübəm var idi. Hərbçi kimi ölkəmin ərazi bütövlüyü uğrunda vuruşmağa, döyüşməyə hazır idim.

**- Həmin gün gəldi. Bir payız günü müharibə qapımızı döydü. 27 sentyabr 2020-ci ili necə xatırlayırsınız?**

- Bəli, 27 sentyabr 2020-ci ildə erməni işğalçıları mövqelərimiz üzərinə hücuma keçməyə cəhd göstərdilər. Biz də torpaqlarımızın müdafiəsinə atıldıq. İkinci Qarabağ müharibəsi başladı. Komandiri olduğum bölmələrin şəxsi heyətini Cəbrayıl rayonunun Nüzgar və Füzuli rayonunun Kənd Horadiz kəndi istiqamətində düşmən hücumlarının qarşısını almağa cəlb etdik. Qəsbkarların ön mövqelərini yarmaq tapşırığı bir az vaxtımızı aldı. İllər idi ki, yağılar burada möhkəmlənmişdilər. Böyük və uğurlu həmlələrdən sonra erməniləri geri sıxışdırdıq. Artıq düşmən qarşımızda dayana bilməyib qaçırdı. İllərdən bəri ürəyimdə qövr eləyən torpaqlarımızın azadlığı uğrunda vuruşmaq arzusuna çatmışdım. Əlimdə silah, ürəyimdə qisas alovuyla işğalçılarla vuruşurdum. Ermənilərin üzərinə nifrət hissi ilə gedirdim. Fikirləşirdim ki, vuruşa-vuruşa doğma kəndimizi də erməni işğalçılarından azad edəcəm, uşaqlığım keçən bu yerlərə ayağım dəyəcək. Amma bir neçə gün sonra komandanlıq hərbi hissəmizi Xocavənd istiqamətinə göndərdi. Günlər keçdikcə bir-bir Qarabağın kəndlərini, qəsəbələrini düşməndən azad edirdik. Döyüşə-döyüşə Hadruta çatmışdıq. Bu qəsəbə uğrunda da gərgin döyüş getdi. Məğlubiyyətlə barışmayan düşmən geri çəkilmək istəmirdi. Amma biz gücümüzlə, bacarığımızla erməniləri buna məcbur edirdik. Onlar canlı qüvvə, həm də silah-sursat, döyüş texnikası sarıdan itkilər verərək addım-addım tutduqları mövqeləri tərk edirdilər. Artıq döyüşlər Şuşa ətrafında başlamışdı. Düşmən bu gözəl şəhərimizdən də çıxmaq istəmirdi. Ordumuzun zabit və əsgərləri böyük igidlik və qəhrəmanlıq göstərərək ermənilərə sarsıdıcı zərbələr vururdular. Düşmən məğlubiyyətin acısını dadırdı.

**- Yaralansanız da, döyüş meydanını tərk etməmisiniz.**

- Noyabrın 6-da Şuşa şəhəri ətrafında gedən döyüşlərdə qəlpə yaraları aldım. Amma döyüş meydanından çıxmadım. İlkin tibbi yardımdan sonra döyüşü davam etdirdim. İki gün sonra - noyabrın 8-də Şuşa erməni qəsbkarlarından azad olundu. Noyabrın 10-da isə döyüşlər dayandırıldı. İşğalçılar məğlubiyyətlərini kapitulyasiya aktına imza atmaqla təsdiqlədilər. Biz ermənilərə qalib gəlmişdik, torpaqlarımızı işğaldan azad etmişdik. Sevincimizin həddi-hüdudu yox idi. Qazandığımız bu Zəfər mənim həyatımın ən xoşbəxt günlərindən biri idi. Bu Zəfər, bu Qələbə 1993-cü ildə erməni işğalçılarından aldığımız sağalmayan yaraya məlhəm oldu.

**- İkinci Qarabağ müharibəsində zabitlərimizin igidliyini, qəhrəmanlığını necə qiymətləndirirsiniz?**

- Zabitlərimiz, əsgərlərimiz Vətən müharibəsində çox böyük cəsarətlə, hünərlə vuruşdular. Müharibənin elə ilk günlərindən xalqımız da, ordumuz da Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi. Erməni işğalçıları bu birliyin, igidliyin qarşısında aciz qaldı, məğlub oldu. İkinci Qarabağ müharibəsindəki Qələbəmiz də bu monolit birlikdən doğdu. Əminlik hissi ilə deyə bilərəm ki, bu birliyi, bu monolitliyi heç bir vaxt heç bir qüvvə sarsıda bilməyəcək.

**- Bəs doğma kəndinizə nə vaxt getdiniz? Evinizi, həyətinizi görəndə hansı hissləri keçirdiniz?**

- Artıq qoynunda dünyaya göz açdığım Qumlaq kəndi də ordumuz tərəfindən işğaldan azad olunmuşdu. Bir az sakitlik yaranandan sonra - 2020-ci il noyabrın 28-də komandanlıqdan icazə alıb 28 ildən sonra doğma kəndimizə getdim. Yol boyu çox kövrək hisslər keçirdim. 28 il əvvəl kəndimizdən məcburi köçkün düşdüyümüz günləri xatırlayırdım. Amma yurdumuzun azad olunması bu kədərə sevinc qatdı. İllərin torpaq həsrətlisi kimi kəndimizə tələsdim. Axır ki, uzun yoldan sonra el-obamıza çatdım. Evimizi tapdım, əyilib həyətimizin torpağından, daşından öpdüm.

**- Yoldaş polkovnik-leytenant, necə fikirləşirsiniz, İkinci Qarabağ müharibəsi yaddaşlarda necə qalacaq?**

- Uğurla başa çatan Vətən müharibəsində xalqımıza Zəfər sevinci yaşadan oğullarımızın adları qəhrəmanlıq tariximizin səhifələrinə böyük hərflərlə yazılıb. Zabit və əsgərlərimizin döyüşlərdə göstərdiyi şücaət heç vaxt unudulmayacaq. Tarixin yaddaşında əbədi qalacaq. Gələcək nəsillər qəhrəmanlıq səhifələrini vərəqləyəndə, onları daha da yaxından tanıyacaqlar. İkinci Qarabağ müharibəsi qəhrəmanlıq tariximizin şərəfli səhifəsidir. İnanıram ki, gələcək nəsillər daim bu igidliklə, qəhrəmanlıqla fəxr edib öyünəcəklər.

**Söhbəti yazdı:**
**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## *Medallı igidlərimiz*

# İki əsgər - iki qardaş



Sovet hökumətinin siyasi rejimi İrzayevlər ailəsini də doğma yurdlarından - el-obadan didərgin salmışdı - ailə uzaq Qırğızıstana sürgün edilmişdi. Vətənə qayıtmaq ümidi ilə hər əziyyətə qatlaşırdı. Digər sürgün olunmuşlar kimi Həsənxan da deyirdi ki, qürbətin gecəsi uzun olurmuş. Sürgün olunanların ən yaşlısı belə demişdi: "Səbirlilər dönəcək". Səbirlə yaşayırdılar...

1990-cı ildə Həsənxan İrzayevin ailəsində doğulan uşağa Səməd dedilər. Körpənin dünyaya gəlişi ili ailənin Vətənə dönüşü ili oldu - Azərbaycana qayıtdılar. Tərtərin Talış kəndində məskunlaşdılar. Düz-əməlli ev-eşik olmamış ermənilər Talış kəndini işğal etdilər. Bu, ailənin üçüncü köçü oldu - Samux rayonunda məskunlaşdılar...

Səməd orta təhsil aldı. Vətənin nə olduğunu ata söhbətləriylə, oxuduqlarıyla, hərdən eşitdikləriylə dərk edirdi - o da Dövlət Himnimizin sözlərini əzbərləyə-əzbərləyə Vətəni ruhən tanımışdı, tanıya-tanıya sevmişdi.

Orta məktəbi bitirdikdən sonra Səməd İrzayevi hərbi xidmətə çağırıblar. Qonşu uşaqlara zarafatla deyib ki, o mahnını "Sıravi Səməd" deyib oxuyarsınız. Gülüşüblər...

Digər əsgər yoldaşları kimi nümunəvi xidməti ilə fərqlənib, bir neçə dəfə komandanlığın təşəkkürünü alıb...

Müddətli həqiqi hərbi xidmətdən sonra tərxis edilib. Ordu sıralarından uzaqda qalmağın mənəvi sıxıntılarını çəkdiyinə görə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən hərbi xidmətə qayıdıb. Artilleriyaçı olub. Xidmətini kiçik çavuş rütbəsi ilə davam etdirib...

2016-cı ilin Aprel döyüşlərində kiçik çavuş Səməd İrzayev də iştirak edib. Digər hərbçi yoldaşları kimi o da qətiyyətlə döyüşüb... Səməd xidmət yoldaşlarına deyərdi: "Ömrün nə olduğunu o dörd gündə daha yaxşı dərk elədim"...

İkinci Qarabağ müharibəsi başlayanda kiçik çavuş Səməd İrzayevin xidmət etdiyi hərbi hissə də döyüşlərə cəlb edilib. O da komandirlərin döyüş əmrlərini məsuliyyətlə yerinə yetirib.

Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb...

Səmədin kiçik qardaşı Sərvər hələ orta məktəb şagirdi olduğu illərdə idmanın kinqboksinq növü ilə müntəzəm məşğul olub, respublika miqyaslı yarışlarda müxtəlif yerlərə, mükafatlara layiq görülüb. Bu, onun hərbi xidmətdə fərqlənməsində müəyyən qədər təsirli olub.

İkinci Qarabağ müharibəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sərvər İrzayev də iştirak edib. Zəfərdən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub.



Səməd və Sərvər İrzayev qardaşları da digər hərbi qulluqçularımız kimi qüdrətli Azərbaycan dövlətinin vətəndaşı, güclü Azərbaycan Ordusunun hərbi qulluqçusu olmalarıyla qürurlanırlar. Bu qürur həm də azərbaycançılığın qürurudur...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

Tarix yazan oğullar

# Nə döyüşlər unudulacaq, nə də döyüşənlər

*İkinci Qarabağ müharibəsi kimi tarixləşən döyüşlər həm Müzəffər Ali Baş Komandanın sərkərdəliyinin, həm də rəşadətli Azərbaycan Ordusunun qüdrətinin tarixinə çevrildi. Milli kimliyimizin, varlığımızın, həqiqətin aynası olan bu qürurlu günlərimiz 30 illik işğala son qoydu.*



Qüdrətli Azərbaycan Ordusunun qəhrəman döyüşçülərinin Vətən sevgisi, məhəbbəti, torpağa bağlılığı Vətən müharibəsində qələbəmizi şərtləndirən amillərdəndir. Onların hər biri uşaq yaşlarından düşmənin xalqımıza qarşı hansı ağrı-acıları yaşatdığını, neçə-neçə azərbaycanlı ailəsinin məhv edildiyini, həmvətənlilərimizin doğma yurdlarından necə didərgin salındıqlarını, törədilən vəhşilikləri, Xocalı soyqırımının qurbanlarını heç zaman unutmurdular. Şəhidlərimizin xatirəsini daim əziz tutan, torpağa, Vətənə, dövlətə sonsuz sevgilərlə bağlı olan gənclərimiz Vətən müharibəsində şücaət göstərərək, şanlı Zəfər çaldılar. Bu müharibədə rəşadətli Azərbaycan Ordusunun igid, qorxubilməz şəxsi heyəti hünərlə döyüşərək qalib gəldilər.

Vətən müharibəsinin hər gününü dərindən araşdırmaq, döyüşən igidlərimizi tanımaq və tanıtmaq, döyüşlərin hər anını qələmə almaq və olduğu kimi oxuculara çatdırmaq bizim vəzifə borcumuzdur.

Bunun üçün Vətən müharibəsinin iştirakçıları olmuş ehtiyatda olan mayor Rövşən Tağıyev və baş gizir Faiq Əmirovla əks-hücum əməliyyatlarının gedişi, nəticələri, yaratdığı dəyişikliklər haqqında söhbətləşdik.

Mayor Rövşən Tağıyev 12 dekabr 1986-cı ildə Bakı şəhərində anadan olub. Vətənpərvər bir ailənin övladı olan Rövşən uşaq yaşlarından hərb sənətinə böyük maraq göstərib. Dostlarından birinin bu sənəti seçərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması onun bu istəyini qarşısıalınmaz ümmana çevirib.

- 2002-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldum, - ehtiyatda olan mayor Rövşən Tağıyev bildirdi. - 2005-2009-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsilimi başa vurduqdan sonra "leytenant" hərbi rütbəsi aldım. 2009-2010-cu illərdə isə indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ixtisas hazırlığı kursu keçmişəm.

Sonra ön xətt hərbi hissələrindən birində xidmətə başlayan zabit xidmət illərində mütəmadi olaraq keçirilən ixtisasartırma kurslarında da iştirak edərək təhsilini təkmilləşdirib.

Baş gizir Faiq Əmirov 27 yanvar 1982-ci ildə Neftçala rayonunda anadan olub. O da məktəb illərindən hərbi formaya maraq salıb və bir gün hərbçi olmaq arzusuyla böyüyüb.

- Əmim polkovnik Fərhad Əmirov Hərbi Hava Qüvvələrində xidmət edirdi. Artıq vəfat edib. Hər dəfə rayona gələndə atamla söhbətləşərkən deyərdi: "Bu uşaq hərbçi olacaq. Mən onda hərbçi cəsarəti, qətiyyəti görürəm". Bu sözlər mənim hərbçi olmağıma təsirsiz ötüşə bilməzdi.

2000-ci ildə Naxçıvanda "N" hərbi hissəsində Vətən qarşısında müqəddəs borcunu yerinə yetirərkən onun hərb sənətinə olan marağı daha da güclənir. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra bir gün belə ara vermədən indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinə müraciət edərək sənədlərini təqdim edir. "Gizir hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vuraraq ön xətt hərbi hissələrindən birində xidmətə başlayır.

İllərlə müxtəlif hərbi hissələrdə xidmət edən bu hərbçilər Vətən müharibəsi başlamazdan bir neçə ay öncə eyni hərbi hissədə xidmət edibələr. Hər ikisinin də səhəri sentyabrın 27-də həyəcan siqnalı ilə açılıb. Onlar Vətənin azadlığı uğrunda başlayan əks-hücum əməliyyatlarına atılanlar sırasında yer alıblar.

- Füzuli istiqamətində döyüşlər başlamışdı. Şəxsi heyətlə birgə Füzuli rayonunun Bayraq meydanında avtomobillərdən düşüb təchizatımızı komplektləşdirdik. Düşmən fasilə vermədən toplardan atəş açırdı, - deyə mayor Rövşən Tağıyev bildirdi.

Baxışları uzaqlara dikilən baş gizir Faiq Əmirov sanki o anları yenidən yaşayırmış kimi söhbətə qoşularaq qeyd etdi ki, o günləri hər bir döyüşçü qələbə ruhu ilə yaşayıb və yaşadıqca xatırlayacaq. "Təyinat nöqtəsinə çatdıqda mərmi bölüyümüzün yanına düşdü. Yaralı və şəhidimiz oldu. Lakin bunlar bizim döyüş ruhumuzu sarsıtmadı. Əksinə, qisas hissimizi, qələbə ovqatımızı daha da kükrətdi. İlk dəfə orada yaralandım. Qapalı kəllə beyin travmasını aldığım üçün iki gün həkim nəzarətində qaldım, lakin davamlı israrlarımdan sonra döyüşə qaytardılar.

Torpağa qan qarışarsa, adına Vətən deyilər. Ordumuzun addım-addım, qarış-qarış azad etdiyi torpağın hər zərrəsi şəhidlərimizin qanı ilə müqəddəsləşib. Çiyin-çiyinə döyüşdüyün yoldaşının şəhid olması nə qədər çətindirsə, onun qisasını almaq, Vətənimizi qorumaq da o qədər şərəflidir. Çünki döyüşən hər kəsin bir amalı vardı - Qarabağı azad görmək.

- Alıxanlıdan Yuxarı Seyidəhmədliyə gəldik. Tapşırıq Aşağı Seyidəhmədlidə düşmənin bunkerini ələ keçirmək idi. Ərazi relyef baxımından çətin görünürdü. Çünki düşmən hündürdə mövqelənmişdi. Düşmən müşahidəsindən yayınmaq üçün çətinliklə irəliləyirdik. Oktyabrın 14-də biz hədəfin yaxınlığında cəmləşdik. Az sonra hücum əmri aldıq. Mən iki qrupa rəhbərlik edirdim. Hərbi Hava Qüvvələrinin heyətləri də həmin hədəfə atəş zərbələri endirirdilər. Bu atəşlərdən istifadə edərək hədəfə doğru irəliləyirdik. Düşmənsə hər vəchlə bizi dayandırmağa çalışırdı. Həmin vaxt mən sol ayağımdan yaralandım. Hava tam qaraldıqdan sonra yaralılar və şəhidlərlə Əhmədbəyli hospitalına təxliyə edildim. İlkin tibbi yardım edildikdən sonra Müdafiə Nazirliyinin Baş Klinik Hospitalına gətirilərək əməliyyat olundum.

Döyüş meydanından çıxarılsam da, şəxsi heyət döyüş planına uyğun olaraq hədəfi ələ keçirmiş və düşmənin təminat yollarını kəsmişdi, - mayor Rövşən Tağıyev bildirdi.

Baş gizir Faiq Əmirov dedi ki, Füzuli istiqamətində gedən döyüşlər zamanı hərbçilərimizin qətiyyəti Qələbənin uzaqda olmadığını göstərirdi. Hərbi hissə komandirimiz öndə, şəxsi heyət də onun arxasınca gedirdi. Yüngül yaralılarımız döyüş meydanından çıxmaq istəmirdilər. Müalicə üçün tibb məntəqələrinə təxliyə olunan yaralılar sanki ürəyi də, ruhu da yoldaşlarının yanında qalırdı. Bütün yaralılar tezliklə sağalaraq döyüşlərə qayıtmağa tələsirdi.

Baş gizir F.Əmirov növbəti dəfə yaralanıb ağır qapalı kəllə-beyin travması aldıqdan sonra döyüş meydanından çıxarılıb.

- Öncəki travmalarda təxliyə olunmağı düşünmədim, döyüşü davam etdirdim. Belə hallar tabeliyindəki döyüşçülərdə ruh yüksəkliyini, əzmkarlığı daha da artırır.

Ordu sıralarından Vətən müharibəsi qazisi kimi tərxis olunan mayor dedi ki, döyüşdə komandir olmaq çox çətin və məsuliyyətlidir. "Şəxsi heyətin gözü, fikri hər an səndə olur. Hansı tapşırığı verəcəyini gözləyir. Çünki ölümü gözə ala-ala döyüşürsən. O anda tək məqsədin olur - Vətən azad olsun. Çox ağır döyüşlərdən keçdik. Biz döyüşçülər o anları son nəfəsimizə kimi yaşayacağıq. Mənimlə üz-üzə dayanan yoldaşımın bir anın içində hansı vəziyyətdə şəhid olmasını ömrümün sonuna kimi unutmayacam... Elə şəxslər var ki, sən yaşadıqca onlarda səninlə yaşayacaq.



Yaddaşında, gözlərində, sözlərində, qəlbində yaşayacaq..."

- Qələbə xəbərini aldığım anda ilk olaraq şəhidləri düşündüm, - baş gizir F.Əmirov dedi. - Çiyin-çiyinə döyüşdüyüm, son nəfəsini qucağımda, qollarım arasında verərək şəhid olanların nurlu siması canlandı gözlərim önündə. Qeyri-ixtiyari başımı qaldırıb göy üzünə baxdım. Düşündüm, illərdir Qarabağ səmasında gəzən nigaran ruhların sevincini hiss etdim. Əzizlərini Vətən, torpaq uğrunda şəhid verənləri xatırladım. Həmyerlim şəhid kapitan Samid Əsgərovun nəşini ailəsinə təhvil verərkən keçirdiyim hissləri, atasının qürurlu dik duruşunu xatırladım. Bu döyüşlərdə mən də şəhid vermişəm. Sevdiklərimin müqəddəs bayrağımızı qəbul edib şəhid tabutunu necə ağrı və qürurla qucaqladıqlarını mən də yaxşı bilirəm. Zəfər xəbəri ağrı-acıdan gözlərindən yaş axan bir atanın, ananın, yoldaşın, övladın qürurlu çöhrəsinə yenidən sevinc, gülüş qondurdu. Bu gözlər nələr görüb nələrə şahidlik etmədi ki...

Söhbət zamanı öyrənirəm ki, Faiqin dayısı oğlu Xəyal Əhmədov Qubadlı döyüşlərində şəhid olub.

İşğaldan azad edilmiş torpaqlarımızın hər qarışında, hər daşında şəhid qanı var. Şəhid qanı axan torpağın daşı da, qayası da müqəddəsdir.

Ümummilli Lider Heydər Əliyevin bir kəlamını xatırlayıram: "Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır". Vətən müharibəsində biz xalqımızın sərgilədiyi bu hisslərin şahidi olduq. Azərbaycan xalqı əzmi ilə bütün dünyaya birlik və həmrəyliyini, vətənpərvərliyini nümayiş etdirdi.

Müsahiblərim yaralı olarkən onlara tibbi yardım göstərən bütün tibb işçilərinə də öz minnətdarlıqlarını bildirdilər. "Hərbi tibb xidmətinin rəhbərliyindən tutmuş kiçik tibb işçisinə kimi hər birinə minnətdarıq. İstər döyüş meydanında, istərsə də təxliyə olunduqdan sonra tibb işçilərinin vəzifə borclarını peşəkarcasına, ləyaqətlə, vicdanla yerinə yetirdiklərinin şahidi olduq. Hərbi həkimlərimiz hər bir yaralının xilası, tam sağalması, normal həyata qayıtması uğrunda eyni əzmkarlıqla çalışdılar".

Hər iki hərbçi Zəfər paradının təntənəsini qürur, fəxarət hissi, vəsfəgəlməz duyğularla yaşadıqlarından da söz açdılar. Bildirdilər ki, xalqımız Vətən, torpaq nisgili, ağrıları ilə yaşadığı 200 ildə belə bir möhtəşəm bayram ovqatı yaşamamışdı. Qələbəmiz bəşər aləmində torpağı işğalda olan xalqlara müharibənin hərbi, siyasi yolunu göstərdi, mübarizələrinə inam yaratdı. "Biz qan tökməyi sevən bir millət deyilik, amma mövzu Vətəndirsə, dünyanın şah damarını kəsərik", - dedilər.

Mayor Tağıyev döyüşlərdə olarkən qızı Ayşən hər gün atasına məktublar yazar, dərs masasının siyirməsində saxlayırmış. Atası evə qayıtdıqdan sonra məktubları sahibinə - atasına verib. Ata bu gün də o məktubları oxuyarkən keçirdiyi hissləri qürur qarışıq kövrəkliklə xatırlayır.

Baş gizir Əmirov qızları Nigar və Sevincin, oğlu Mehdi zamanın xalqımıza layiqli vətəndaş kimi formalaşdığını vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən mayor Rövşən Tağıyev "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Döyüşdə fərqlənməyə görə", "Vətən müharibəsi iştirakçısı" medalları, baş gizir Faiq Əmirov isə "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunublar.

Bu yaşananları nə iləsə müqayisə etmək mümkünsüzdür. Vətən müharibəsində çəkilən əziyyətləri, yaşanan hadisələri, bir addım, bir qarış torpağın azad olunması üçün gedən döyüş əməliyyatlarını, qazanılan qələbə sevincini sözlərlə ifadə etmək çətindir. Ali Baş Komandan İlham Əliyevin də dediyi kimi, "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq. Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. 44 gündə əldə edilmiş qələbə hərbçilərimizin peşəkarlığı və qəhrəmanlığı hesabına qazanılıb".

Sonda hər iki döyüşçü onların rifahı, sosial-məişət şəraitlərinin yaxşılaşdırılması, müayinə və müalicəsi üçün aparılan işlərdən, göstərilən dəstəkdən razılıqlarını bildirdilər, hər cür diqqət və qayğı ilə əhatə olunduqlarına görə dövlətimizin başçısına, Birinci vitse-prezidentə, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Vətənimizin gələcək müdafiəçiləri

*Dahi şəxsiyyət Heydər Əliyevin xeyir-duası ilə fəaliyyətə başlayan və Naxçıvanda ilk hərbi təhsil ocağı olan 24 yaşlı Hərbi lisey qısa zaman kəsiyində adını tarixin səhifələrinə yazdıra bildi. Orxan Quliyev, Tural Haşımlı, Qabil Orucəliyev, Allahyar Telmanlı, Vüsal Vəliyev, Həsən Quliyev, Fuad İsmayılov, Həmid Qasımov, Yaqub Nəcəfov, İsmayıl Vəliyev və adlarını sadalamadığımız onlarla şəhidlik mərtəbəsini fəth edən igidlərimiz bu liseyin məzunu oldular. Bu igidlər sırasında yalnız Vətən müharibəsində deyil, müxtəlif illərdə erməni təxribatlarının qarşısını alarkən şəhid olanlar var. Hamısını ehtiramla anırıq. Onların seçdikləri yol, qəhrəmanlıqları, şücaətləri bu gün təhsil alan kursantlar üçün örnəkdir.*













Kursant Tural Hüseynzadə ilkin hərbi təhsil üçün Ulu Öndərin adını daşıdığı Hərbi liseyi seçib. Özü Bakı şəhərindəndir. Qardaşı Fərid Hüseynov da buradan məzun olub. Türkiyədə Dəniz Harp Okulunda təhsilini davam etdirir. Turalın atası zabit Vüsal Hüseynov isə hazırda xidmətdədir. Qalib ordunun əsgəri olmaq arzusu ailədən qaynaqlansa da, onu bu peşəyə sövq edən Hərbi liseyin zabiti olmuş, şəhid polkovnik-leytenant Qərib Baxşəliyevin cəsurluğu olub. O, müharibə zamanı erməni hərbçilərinin mühasirəsinə düşüb, son gülləsinə qədər döyüşüb. Qərib Baxşəliyevin vətənpərvərliyi, qorxmazlığı onun diqqətini çəkmiş, Vətən müharibəsindəki şücaəti isə Turalda böyük qürur hissi yaratmışdı. Turalın arzusu şəhid qanı tökülən o müqəddəs torpaqlarda xidmət etməkdir.

Tovuzun Yuxarı Öysüzlü kəndindən olan kursant Məhərrəm Mustafayevin şəkli şəref lövhəsinə vurulub. Məhərrəm deyir ki, peşəkar zabit tək gücü ilə deyil, həm də biliyi, bacarığı ilə örnək olmalıdır. Əynindəki forması ilə öyünən kursant hərbi mundirin həm də böyük məsuliyyət olduğunu bildirir. Torpaqlarımızın işğaldan azad olunması onda böyük qürur hissi yaradıb. Dayısı gizir Firuz Əhmədov 2020-ci ilin sentyabrında düşmənin genişmiqyaslı təxribatının qarşısını alarkən şəhid olub. Bir sözlə, Məhərrəmin özünü peşəkar bir hərbçi kimi yetişdirmək üçün səbəbləri çoxdur. Məqsəd isə birdir: Vətənə sədaqətlə xidmət etmək.

Babək rayonunun Məzrə kəndindən olan Vasif Salayevin də hərb peşəsinə marağı ailəsindən qaynaqlanıb. Yeni tədris ilindən burada təhsilə başlamasına baxmayaraq artıq lisey onun üçün doğma ocağa çevrilib. Vasif burada həm də yaxşı dostlar qazanıb. İdmanla məşğul olmaqla yanaşı, dərslərinə də ciddi yanaşan Vasif liseydəki şəraitdən razı olduğunu bildirdi: "Burada bizim yaxşı oxumağımız üçün hər bir şərait yaradılıb. Laboratoriyalar, fənn kabinələri, STEAM kabinəsi, elektron lövhəli siniflər və s."

II kursda təhsil alan Röyal Rzazadənin atası zabit Zərdabi Rzayev bir müddət Naxçıvanda xidmət edib. Röyala isə Naxçıvanda təhsil almaq nəsib olub: "Liseyə gələndən sonra bütün fənlərə marağım artdı. Buradakı tələbkarlıq, müəllimlərin hər birimizə fərdi yanaşması, həmçinin yaradılan şərait bizi oxumağa həvəsləndirir. Mən düşünürəm ki, zabit yalnız hərbi biliklərə deyil, elmi biliklərə də yüksək səviyyədə malik olmalıdır ki, informasiya müharibələrində də qalib olsun". Röyal müasir Azərbaycan ədəbiyyatı nümunələrini mütalie etməyi sevir. Elxan Elatlının "Qisas gecəsi" əsərinin qəhrəmanı Mübariz İbrahimovdur. Bu əsərdən təsirlənən Röyal mübariz olmağı, peşəkar zabit kimi formalaşmağı qarşısına məqsəd qoyub. Röyalın dayısı kapitan Elvin Əlizadə də Vətən müharibəsinin iştirakçısı olub.

Kursant Cəfər Həsənov Babək rayonunun Çeşməbasar kəndindəndir. Uşaqlıq illərində oxuduğu qəhrəmanlıq hekayələrindən, baxdığı filmlərdən təsirlənərək hərbçi olmağı qərara alıb. Və bu arzusunu illərlə ürəyində yaşadıb. Cəbrayıl Dövlətzadənin igidliyi Cəfərdə düzgün seçim etdiyi qənaətini möhkəmləndirib: "Liseyimizin məzunu şəhid leytenant Vəli Quliyevin dediyi kimi, üstündə gəzdiyin torpaq canından dəyərli deyilsə, o torpaq sənin Vətənin ola bilməz. Zabit peşəkarlığı da elə səviyyədə olmalıdır ki, torpağı, Vətəni üçün canından keçməyə hazır olan əsgər yetişdirsin".

Goranboydan Naxçıvana ikinci dəfə gəlməyinə səbəb Nadir Şərifxanovun Hərbi liseydə oxumaq arzusu olub. Atası ehtiyatda olan polkovnik-leytenant Rövşən Şərifxanov Naxçıvanda xidmət edib. Doğulduğu torpağı qədər doğma olan Naxçıvana yenidən dönmək, həm də atasının xeyir-duası ilə ali bir məqsədin arxasınca gəlmək Nadiri qürurlandırır. "44 günlük müharibə dövründə Ali Baş Komandanın çıxışlarını izləyir, ilk günlərdən ordumuzun qələbə qazanacağına inanırdım. Bu yolda şəhidlərimiz də, sağlamlığını itirən qazilərimiz də oldu. Onların əmanətini qorumaq missiyası bizim üzərimizə düşür. Odur ki, peşəkar zabit kimi formalaşmalı, Vətənin keşiyində sədaqətlə durmalıyıq".

Vətənimizin gələcək müdafiəçiləri - qəhrəmanları, biz sizə güvənirik. Sizdən öncəkilər göstərilən etimadı layiqincə doğrultdular, sizin də Hərbi anda sadiq qalacağınıza əminik.

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

## Qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus kvadrokopter ələ keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus kvadrokopter noyabrın 26-sı saat 11:28-də Xocalı rayonunun Şuşakənd yaşayış məntəqəsi, 11:46-da isə Ağdam rayonunun Yeddi Xırman yüksəkliyi ətrafında bölmələrimizin mövqeləri üzərində kəşfiyyat məqsədli uçuşlar həyata keçirməyə cəhd göstərib.

Bölmələrimizin sayıqlığı nəticəsində aşkar edilən kvadrokopter xüsusi üsulla endirilərək ələ keçirilib.



## Ordumuzun mövqeləri atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, noyabrın 27-si saat 17:10-dan noyabrın 28-i saat 01:25-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Aşağı Şorca və Qaraiman, Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə, Daşkəsən rayonunun Astaf və Tovuz rayonunun Ağdam yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bundan başqa, noyabrın 27-si saat 19:35-dən noyabrın 28-i saat 08:10-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Şuşa, Xocavənd, Xocalı və Ağdam rayonları istiqamətlərində yerləşən mövqeləri də atəşə tutulub.

Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

* * *

Noyabrın 28-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bundan başqa, noyabrın 28-i saat 16:00-dan noyabrın 29-u saat 09:00-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Ordumuzun Füzuli, Tərtər, Xocavənd, Şuşa və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri də müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutulub.

Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Bakıdan Ağdama aparan yol

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, ölkəmizdə 8 Noyabr - Zəfər Günü kimi təsis edildi. Bu il Vətən müharibəsində qazanılan Zəfərin artıq ikinci ildönümü qeyd edildi. Zəfərə gedən yolda rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə 44 gün ərzində yüksək peşəkarlıq və şücaət nümayiş etdirərək əzəli torpaqlarımızı mənfur düşməndən azad etdi.*



44 günlük döyüşlər qələbə ilə başa çatdı. Düşmən ordusunun rəhbərliyi Azərbaycan əsgərinin qarşısında tab gətirə bilmədiyini görüb kapitulyasiya aktına imza atmalı oldu. Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında imzalanan bəyanatın 2-ci bəndinə əsasən, Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi 20 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasına qaytarılmalı idi. Ali Baş Komandanın dediyi kimi kapitulyasiyaya məcbur qalan Ermənistan tərəfi təyin olunan vaxt ərzində bu bəndi yerinə yetirdi. Beləliklə, Azərbaycan Ordusu bir güllə belə atmadan Ağdamı tam azad etdi və bununla Ağdamın 27 illik işğal tarixinə son qoydu.

Artıq iki ildir ki, ənənəyə uyğun olaraq işğaldan azad olunan rayonlarımıza Kütləvi İnformasiya Vasitələrinin iştirakı ilə Media-turlar təşkil olunur. Çünki işğaldan azad olunan rayonlarımızın tarixi xalqımız üçün əhəmiyyətlidir. Ümumilikdə desək, 44 günün hər anı bizlər üçün tarixi əhəmiyyət kəsb edir. Bu tarixi əhəmiyyətli günlərdən birində bizim də yolumuz Ağdamadır. Yol boyu yol hərəkət nişanlarında azad edilən ərazilərin adını görür və daha da çox fərəhlənirik. Artıq "Şuşa", "Laçın", "Xocavənd" yazılarına baxaraq könül rahatlığı yaşayırıq. Bu torpaqlar Vətənin mərd oğullarının gələcək nəsillərə unudulmaz tarixi əmanətidir. Azərbaycan əsgəri bu əmanəti göz bəbəyi kimi qoruyur və hər zaman qoruyacaq.

Artıq Ağdama daxil olduq. Əhalinin təhlükəsizliyinin qorunması məqsədilə müvəqqəti qurulan postdan keçdik və işğaldan azad olunan ərazilərə çatdıq. Yol kənarlarında erməni işğalçıları tərəfindən törədilmiş genişmiqyaslı dağıntılara, illər öncə yerlə-yeksan olunmuş evlərə rast gəlsək də, nəhəng bərpa-quruculuq və abadlaşma işlərinin də şahidi olduq. Bizi işğaldan azad olunmuş ərazilərə aparan yolu qısa bir müddət sonra yeni asfalt örtüyü ilə görəcəyik... Ətrafa nəzər salaraq təyin olunan ünvana çatdıq.

Şərəfli peşə sahibləri ilə görüşdük. Burada xidmət edən hərbi qulluqçularla tanış olduq. Hər biri qalib Azərbaycan Ordusunun sıralarında yer aldıqlarından və azad olunan ərazilərdə xidmət etdiklərindən qürur duyduqlarını, yaradılan şəraitdən razı olduqlarını bildirdilər.

Baş leytenant Əliskəndər Qurbanov Vətən müharibəsinin iştirakçısıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən baş leytenant Əliskəndər Qurbanov "Ağdamın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunub. Gənc zabit Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) artilleriya ixtisası üzrə bitirdikdən sonra "N" hərbi hissəsində xidmətini davam etdirdiyini bildirdi. "Hər kəs bilirdi ki, Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmri ilə bütün cəbhə boyu əks-hücum əməliyyatına keçdi. Mən də döyüşlərə artilleriya batareyası komandiri olaraq qatıldım, Ağdam-Ağdərə istiqamətində vuruşdum. Bu gün də azad olunmuş ərazilərdə, əsasən də Ağdamda xidmət etməkdən çox qürurluyam. Biz bu torpaqlar üçün canımızı, qanımızı gözümüzü qırpmadan qurban verməyə hazırıq, bunu düşmən yaxşı bilir. Əgər Azərbaycanın suveren ərazisinə bir daha hər hansı bir ölkə göz dikərsə, Azərbaycan Ordusunun əyilməz qələbə ruhunu görəcək".

Daha sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ayxan Xəlilov, əsgərlər Arzu Quliyev və Manaf Quliyev də komandirlərinin sözlərinə qoşularaq, işğaldan azad olunan ərazilərdə xidməti özlərinə şərəf bildiklərini qeyd etdilər. "Bu gün burada xidmətin təşkili üçün hər cür şərait yaradılıb. Yeni hərbi hissələr tikilir və xidmətimizin səmərəli keçməsi üçün yenidən təmir olunur. Biz də öz növbəmizdə döyüş və fiziki hazırlığımızı gündən-günə yüksəldir, savadımızı artırırıq ki, doğma Vətənimizin keşiyində layiqincə duraq".

Azərbaycanın dünyaya gücünün nümunəsi olan Vətən müharibəsindən sonra kapitulyasiyaya məcbur qalan Ermənistan Azərbaycan Ordusuna geri təhvil verdiyi Ağdamın azad olunmuş əraziləri ilə tanışlığımız, burada xidmət edən hərbi qulluqçularımızla söhbətimiz o qədər xoş oldu ki, zamanın necə keçməsini belə hiss etmədik. Artıq vidalaşmaq vaxtı çatmışdı. Mərd döyüşçülərimizə uğurlu xidmətlər, "ruhlar şəhərinə" isə yaxın zamanda yenidən ölkəmizin ən gözəl şəhərlərindən olmağı arzuladıq. Əminliklə deyə bilərik ki, həm Prezidentimiz, həm də xalqımız bu torpaqlara həyatı yenidən qaytarmaq üçün əlindən gələni edirlər. "Qafqazın Xirosiması" adlandırılan Ağdamı yenidən dirçəlmiş görmək ümidilə...

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Bacarığımla həmişə ön sırada olmağa çalışıram

İkinci Qarabağ müharibəsi zamanı hərbçi kimi üzərimizə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldik. Torpaqlarımızın azadlığı naminə bütün çətinlikləri dəf etdik, şərəfli döyüş yolu keçdik. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlanan gün hərbi hissəmizin şəxsi heyətini döyüşlərə cəlb etdilər. Biz bu günü çoxdan gözləyirdik. Gözləyirdik ki, döyüş meydanlarında erməni qəsbkarlarını məğlubiyyətə uğradıb zəfer çalaq, yurdumuzu azad edək. Bölməmizi Kəlbəcər istiqamətinə, Murovdağa göndərdilər. Biz cəbhə xəttinə çatanda artıq ağır döyüşlər gedirdi. Ermənilər müxtəlif istiqamətlərdən mövqelərimiz üzərinə hücuma keçməyə cəhd göstərirdilər. Düşmən hücumlarının qarşısını almaq üçün döyüşə atıldıq. Qısa müddət ərzində erməniləri dayandırmağa müvəffəq olduq. Zabit



və əsgərlərimiz düşməni məğlub etmək üçün igidliklə, hünərlə vuruşurdular. Uğurla başa çatan əks-hücum əməliyyatları nəticəsində erməni işğalçılarını bir neçə strateji əhəmiyyətli yüksəkliklərdən geri oturtduq. Addım-addım torpaqlarımız işğaldan azad olunurdu. Vuruşa-vuruşa ölkəmizin ərazi bütövlüyünü bərpa edirdik. Gərgin döyüşlərdən sonra Ömər aşırımı və başqa yüksəkliklər azad edildi. Bu yüksəkliklər yağılar üzərində qələbəmizi təmin etməyə təkan verdi. Təəssüflər olsun ki, İkinci Qarabağ müharibəsində sonadək vuruşa bilmədim. 2020-ci il noyabrın 5-də ağır yaralandım. İlkin tibbi yardımdan sonra həkimlər məni hospitala çatdırdılar. Müalicəmi bitirəndə artıq döyüşlər dayanmışdı.

İkinci Qarabağ müharibəsində göstərdiyim cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Kəlbəcərin azad olunmasına görə" və "İgidliyə görə" medallarına layiq görülmüşəm. Bu gün də ordumuzun sıralarında, komando hərbi hissəsində xidmətimi uğurla davam etdirirəm. Peşəkarlığımla, bacarığımla həmişə ön sıralarda olmağa, yeni-yeni uğurlar qazanmağa çalışıram.

**Kiçik çavuş**
**Rəşad ƏLİYEV**
**"N" hərbi hissəsi,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusu İraq və Suriyanın şimalında terrorçulara növbəti dəfə sarsıdıcı zərbə vurub



Türkiyə Silahlı Qüvvələrinin birliklərinin İraq və Suriyanın şimalında keçirdikləri növbəti əməliyyatları nəticəsində terrorçulara növbəti dəfə sarsıdıcı zərbə vurulub.

Türkiyə Milli Müdafiə Nazirliyi xəbər verir ki, noyabrın 25-də və 26-da ümumilikdə 22 PKK/YPG terrorçusu zərərsizləşdirilib. Onlardan 10-u İraqın, 12-si isə Suriyanın şimalında məhv olunub.

Dövlət rəsmiləri bir daha bəyan ediblər ki, antiterror əməliyyatları son terrorçu məhv edilənə qədər davam edəcək.

## DHKP/C terror təşkilatının Türkiyədən məsul üzvü İstanbulda saxlanılıb



DHKP/C terror təşkilatının Türkiyədən məsul üzvü Gültən Matur İstanbulda saxlanılıb.

Terrorçu Türkiyənin Milli Kəşfiyyat Təşkilatı (MİT) və polisin birgə keçirdiyi əməliyyat nəticəsində ələ keçirilib.

"Silahlı terror təşkilatına üzv olmaq" cinayəti ilə barəsində həbs qərarı çıxarılan terrorçunun xaricə qaçmaq axtarışında olduğu müəyyənləşib.

## Britaniya Ukraynaya "Brimstone" raketlərinin təkmilləşmiş versiyasını verib



Böyük Britaniya Ukraynanı əvvəllər verdiyi ilk nəsil "Brimstone" raketlərinin əvəzinə atış məsafəsi iki dəfə artırılmış yüksək dəqiqlikli "Brimstone 2" raketləri ilə təchiz edir.

"The Daily Telegraph" qəzeti xəbər verir ki, lazer sisteminə malik raketlər ənənəvi olaraq "Tornado" və "Typhoon" qırıcı təyyarələri vasitəsilə buraxılır. Lakin Ukrayna Silahlı Qüvvələri mobil atəş qurğuları kimi yük maşınlarından istifadə edir.

2016-cı ildə Kral Hərbi Hava Qüvvələrinin arsenalına daxil olan "Brimstone 2" raketinin qiyməti təxminən 175 min funt-sterlinqdir (207 min dollar). Təyyarədən atılan raketin uçuş məsafəsi 60 kilometr, yerdəki qurğudan atılan raketin uçuş məsafəsi isə 12 kilometrdir.

Böyük Britaniya bundan öncə Ukraynaya 7 minə yaxın tank əleyhinə NLAW raket kompleksi, 100-dən çox zirehli texnika, "Starstreak" raketləri ilə təchiz edilən "Stormer" özüyeriyən zenit qurğuları, onlarla M109 haubitsası və yedəkli L119 topları, M270 yaylım atəş sistemləri, 16 mindən çox artilleriya mərmisi və 4,5 ton plastik partlayıcı göndərib.

Həmçinin oktyabrın ortalarında Britaniya hökumətinin Ukraynaya ABŞ-ın NASAMS zenit-raket komplekslәri üçün orta mənzilli AIM-120 (Advanced Medium Range Air-to-Air Missile, AMRAAM) raketləri tədarük etdiyi də məlum olub. Bundan başqa, London hər dörd aydan bir 10 min ukraynalı əsgərə üç həftəlik təlim kursları keçməyi vəd edib. Son məlumata görə, britaniyalı təlimatçılar artıq Ukrayna Silahlı Qüvvələrinin 7 mindən çox hərbçisinə təlim keçib.

Eyni zamanda, noyabrın 19-da Kiyevə səfər edən Böyük Britaniyanın Baş naziri Rişi Sunak Londonun Kiyevə 125 zenit topu, habelə hava hücumundan müdafiəni gücləndirmək və pilotsuz uçuş aparatları ilə mübarizə aparmaq üçün xüsusi texnika verəcəyini elan edib.

**AZƏRTAC-ın materialları əsasında**

*Əsgərin tribunası*

# Vətənə xidmətimlə qürur duyuram

Xalqımızın böyük şairi Məmməd Arazın "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim" məşhur misraları hər zaman aktualdır. Vətənpərvər şair və yazıçıların yazdıqları əsərlər insanı Vətəni sevməyə daha da ruhlandırır. Qarabağımızı azad görmək naminə qəhrəmanlıqlar göstərmiş Vəzir Orucov, Mübariz İbrahimov, Polad Həşimov və başqalarının döyüşlərdə göstərdikləri igidliklər barədə çox oxumuşuq. Belə oğullarımızı örnək bilərək onların yolunu davam etməyə çalışırıq.



Cəbhə bölgəsində xidmət etməkdən qürur duyuram. İkinci Qarabağ müharibəsi zamanı yağı işğalı altında olan torpaqlarımız qəhrəman əsgərlərimiz tərəfindən azad edildi. Hazırda həmin ərazilərdə xidmətdəyəm. Düşmənlə üz-üzə döyüş növbətçiliyi aparmaq məsuliyyətli vəzifədir.

Gecə-gündüz əldə silah, ürəkdə Vətən sevgisi ilə növbə çəkirik. Erməni silahlı dəstələri atəşkəsi pozmağa cəhd etdikdə qarşısını dərhal alır və onlara lazımi cavabı veririk.

Masallı rayonu Səfərbərlik və Hərbi xidmətə Çağırış üzrə Dövlət Xidmətindən ordu sıralarına çağırılmışam. Burada Vətənimizin müxtəlif bölgələrindən olan əsgər yoldaşlarım var. Onların hər biri nizam-intizamı, nümunəvi xidməti ilə fərqlənir. Əsgər yoldaşlarımdan Fəqan Yaqublu, Rəşad Məmiyev və başqaları döyüş növbətçiliyində fərqlənən əsgərlərdəndir. Müxtəlif bölgələrdən olsaq da, niyyətimiz, amalımız birdir - İgid Vətən övladlarının canı, qanı bahasına azad etdiyi torpaqlarımızı müdafiə etmək.

Zabitimiz Əli Camalzadə tez-tez düşmənlə üzbəüz olduğumuz döyüş mövqeyinə gəlir. O, bizi nümunəvi xidmət etməyə sövq edir. Başlıca məqsədimiz və amalımız Vətən qarşısında övladlıq borcumuzu layiqincə yerinə yetirərək, komandirlərimizin etimadını doğrultmaqdır.

Vətənin müsəlləh əsgəri olmağımla qürur duyuram.

**Əsgər**
**İbrahim RZAYEV**
**"N" hərbi hissəsi**

*Hərbi texnikalar, silahlar*

# Azərbaycan istehsalı olan PUA-lar



Azərbaycan Müdafiə Sənayesi Nazirliyi və "Detect" şirkəti 2022-ci ildə yeni “Ovçu-G4”, “Turaz”, “Fatum” və “Tilt Rotor” pilotsuz uçuş aparatları hazırlayıb.

**“Ovçu-G4”** havadan zərbə endirən pilotsuz uçuş aparatı 82 mm minaatan qurğuyla təchiz edilib və onun uçuş məsafəsi 10-30 km radiusda dəyişir. İnfraqırmızı kamera ilə birləşdirilmiş minaatan (82 mm) buraxılış qurğusu ilə təchiz olunub. O, havadan zərbələr endirmək üçün nəzərdə tutulub. Aparat bir dəfəyə 7 kiloqram çəkidə dörd mina daşıya bilir. Həmçinin, PUA radiodalğaların qarşısını ala bilir ki, bu da onun düşmən tərəfindən müəyyən olunmasını minimuma endirir. PUA-nın uçuş sürəti 70-80 km/ saatdır.

**“Fatum”** - kəşfiyyat və zərbə vuran pilotsuz uçuş aparatının effektiv döyüş başlığının çəkisi 2 kq, atış məsafəsi 10 km-dir. Effektiv istifadə radiusu 10-15 km hesab edilir.

**“Turaz”** - Azərbaycanın ilk şaquli qalxıb enə bilən hərbi təyinatlı pilotsuz uçuş aparatıdır. Platformanın əsas üstünlüyü ondan ibarətdir ki, istifadə olunarkən uçuş-enmə zolağına ehtiyac yoxdur. İstənilən yerdə istifadə oluna bilər. PUA üçün Azərbaycan istehsalı olan "Gürzə" avtomobillərindən biri modernləşdirilib. Platformanın əsas missiyası kəşfiyyat, hədəfseçmə, hədəflərin koordinatlarının ötürülməsidir. Quruda və dəniz üzərində uçuş imkanlarına malikdir.





**“Tilt Rotor”** - pilotsuz uçuş aparatı uzunmənzillidir, bununla yanaşı, həmçinin yük daşıma imkanı da var. O, həm təchizat, həm də kəşfiyyat funksiyalarını yerinə yetirə bilir. "Tilt Rotor" istənilən səth üzərində uçuş-eniş etmək imkanına malikdir.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Dibsiz göl



Rusiya Federasiyasının Sergeyevka və Vertlino Solneçnoqorsk kəndləri arasında bir göl yerləşir. İnsanlar bu gölü "Dibsiz Göl" adlandırırlar. Gölün dibini öyrənmək mümkün olmadığına görə bəzi insanların fikrincə, gölün sonu yoxdur və onun dibi məhz yerin episentrinə kimi uzanır.

Alimlərin fikrincə, gölün buzlaq mənşəyi var. Termokarst prosesləri səbəbindən torpaq tədricən aşağı enib və gölün qabığı dərinləşib. XVIII əsrin ortalarından bu vaxta qədər gölü öyrənmək istəyən həvəskarlar gölün dərinliyini müxtəlif yollarla ölçməyə çalışıblar (iplə, dalış vasitəsilə), lakin heç kim buna nail ola bilməyib.

Dalğıclar deyirlər ki, artıq 4 metr dərinlikdən sonra gölün təmiz suyu bitir və çöküntülü bulanıq su başlayır. Gölün okeanlarla əlaqəli olduğu fikri də irəli sürülür.

Göl dairəvi formadadır, hər tərəfdən ağaclarla əhatə olunub.

Hidroqrafiyası:

- Ölçüsü - 165-170 m.
- Sahəsi - təxminən 16 hektardır.
- Dairə formasındadır.
- Sahilləri bataqlıqdır.
- Suyu yuxarı qatda təmiz və şəffafdır.
- Dibi mamırlıdır (yalnız 1,5 m dərinlikdə sahildə müəyyən edilir).

Flora və faunası:

Göl ətrafında Rusiyanın mərkəzi bölgəsinə xas olan bir çox ağac böyüyür. Balıqla boldur. Gölün sahilləri bataqlıq olduğuna görə Solneçnoqorsk bölgəsində yaşayan heyvanlar (kirpi, çöl donuzu, dovşan, tülkü) gölə yaxın gəlmir.

**"Azərbaycan Ordusu"**

# İdman

## Taekvondoçularımız Avropa birinciliyində daha iki medal qazanıblar




Maltanın paytaxtı Vallettada yeniyetmə taekvondoçular arasında Avropa birinciliyi davam edir.

Azərbaycan millisi yarışda daha iki medal qazanıb.

Komandamızın heyətində Mehdi Budaqlı dünya çempionatının ardınca qitə birinciliyində də fəxri kürsüyə yüksəlib. Belə ki, 33 kiloqram çəki dərəcəsində mübarizə aparan taekvondoçu yarışa ispaniyalı Enol Peres üzərində qələbə ilə başlayıb. Dörddəbir finalda Evangelos Pantosu (Yunanıstan) da məğlub edən dünya çempionu yarımfinalda Dieqo Senesi (İtaliya) ilə qarşılaşıb. Gərgin keçən görüşdə rəqib qalib gəldiyindən Budaqlı bürünc medala layiq görülüb.

Onun komanda yoldaşı Bahadur Dostuyev (49 kq) də fəxri kürsünün 3-cü pilləsinə yüksəlib. Ardıcıl olaraq, Yahia Elaqami (Böyük Britaniya) və Asterios Fourkiotisu (Yunanıstan) yarışdan kənarlaşdıran təmsilçimiz finala gedən yolda Aristeidis Psarrosu (Yunanıstan) sınağa çəkib. Yarımfinalda rəqib üstün olduğundan Bahadur milliyə ikinci bürünc medalı qazandırıb.

Beləliklə, millinin aktivində hələlik 1 qızıl, 1 gümüş və 2 bürünc medal var. Bundan əvvəl Zəhra İsayeva (29 kq) çempion olub, Xuraman Cavadzadə (37 kq) ikinci yeri tutub.

## Azərbaycan gimnastları dünya yaş qrupları yarışlarında qızıl medal qazanıblar



Bolqarıstanın paytaxtı Sofiyada batut gimnastikası üzrə dünya yaş qrupları yarışları davam edir.

Sinxron batut proqramında 15-16 yaş kateqoriyasında mübarizə aparan təmsilçilərimiz Maqsud Mahsudov və Hüseyn Abbasov bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanıblar.

Qeyd edək ki, ötən gün tamblinq gimnastikası üzrə 17-21 yaş kateqoriyasında çıxış edən millimizin üzvü Tofiq Əliyev gümüş medala sahib olub.

## Kriştianu Ronaldu ardıcıl beşinci dünya çempionatında qol vuran ilk futbolçu kimi tarixə düşüb



Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldu tarixi uğura imza atıb.

O, ardıcıl beşinci dünya çempionatında qol vuran ilk futbolçu kimi tarixə düşüb. Hücumçu buna Qana ilə dünya çempionatının birinci turunun matçında penaltini dəqiq yerinə yetirməklə nail olub.

Qeyd edək ki, Ronaldu 2006-da, 2010-da, 2014-də və 2018-də təşkil edilmiş dünya çempionatlarında qol vurub.

Dünya çempionatının “H” qrupunda keçirilən Portuqaliya-Qana oyunu Portuqaliya seçməsinin 3:2 hesablı qələbəsi ilə başa çatıb.

## Şahmat dünyasının əfsanəsi Nona Qaprindaşvili səkkizinci dəfə dünya çempionu olub



Şahmat dünyasının əfsanəsi gürcüstanlı Nona Qaprindaşvili İtaliyada böyüklər (65 yaşdan yuxarı) arasında keçirilən şahmat üzrə dünya çempionatının qalibi olub.

N.Qaprindaşvili bu qələbəsi ilə səkkizinci dəfə veteran şahmatçılar arasında dünya çempionu adını qazanıb.

Qeyd edək ki, Gürcüstanın şahmat əfsanəsi həm də on bir şahmat olimpiadasının qalibi və klassik şahmat üzrə beşqat dünya çempionudur.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1163
Nüsxə 4740